Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 161 (2009) 26 oktyabr 2019-cu il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR

# Elmdə və sənətdə çığıraçanlar tandemi

## Ata və oğul Hüseynovların milli və beynəlmiləl yaradıcılıq yolu

**(əvvəli ötən sayımızda)**

**Bu ağır işi Rəhim müəllim öz üzərinə götürür və onun həm müəllifi, həm də redaktoru olduğu, fizika-riyaziyyat elmi üzrə 9.000 söz və söz birləşmələrindən ibarət olan Azərbaycanca-Rusca-İngiliscə ilk fundamental "Astronomiya Terminləri Lüğəti"nin işlənib hazırlanması professor çalışdığı elm sahəsinin inkişafında böyük əhəmiyyət daşıyan xidmətlərindən biridir.**

2019-cu il sentyabr ayının 16-da Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının (ŞAR) 60 illik və Beynəlxalq Astronomiya İttifaqının 100 illik yubileyi ilə əlaqədar "Ulduzlar və planetlər fizikası" adlı beynəlxalq konfrans keçirilib. Konfransda Rusiya, Ukrayna, Polşa, Hollandiya, İtaliya, Türkiyə, Almaniya, Gürcüstan, Tacikistan, İsveç, Hindistan və Qazaxıstandan olan nüfuzlu alimlər iştirak edib. Konfransın məqsədi rəsədxanada aparılan elmi tədqiqat istiqamətlərinin dünya elminə inteqrasiyası, yeni yaradıcılıq əlaqələrinin qurulması, beynəlxalq elmi tədqiqat proqramlarına çıxışların təmin edilməsidir. Konfrans iştirakçılarına müraciətdə qeyd edilib ki, yarım əsrdən çox tarixi olan Şamaxı Astrofizika Rəsədxanası hazırda inkişafının ən yüksək pilləsindədir. Bu pilləyə çatmaqda, sözsüz ki, Rəhim Hüseynovun xüsusi xidmətləri olub.

65 illik elmi-pedaqoji fəaliyyətində professor Rəhim Hüseynovun 100-dən çox elmi əsəri (o cümlədən 30-dan çoxu xarici ölkələrdə) işıq üzü görüb. Bundan başqa o, 70-dən çox elmi məqalənin, 6 elmi-kütləvi kitabın, bir monoqrafiyanın, ali və orta məktəblər üçün dərsliklərin müəllifidir. Alim dostları professor R.Hüseynovu səciyyələndirən əsas cəhətlər kimi onun tədqiq etdiyi prosesləri dərindən və dəqiqliyinədək dərk etməsini, məqsədyönlülüyünü, yüksək məsulliyyət hissini, özünə və onunla birgə çalışmış əməkdaşlara qarşı tələbkarlığını qeyd edirdilər. Bütün varlığı ilə xalqına bağlı olan, qəlbində Vətəninə, doğulub böyüdüyü yurda böyük məhəbbət çağlayan, "Günəş"in tədqiqatçısı olan Rəhim müəllim özü Günəşin bir parçası kimi hərarətli və nurlu şəxsiyyət, mənən kainatın özü qədər geniş ürək sahibi idi.

2012-ci il avqustun 21-də, ömrünün 88-ci ilində vəfat edən Rəhim Hüseynovdan astrofizika elmi sahəsində açdığı dərin cığırlar xatirə qalıb. İndi bu cığırlarla irəliləyib elmin sirlərinə yiyələnən gənc alimlərin rəhmət duaları onun ruhunu yaşadan ən gözəl duyğulardır.



### *Dili bilmədən yaponca danışan bəstəkar*

"Şərq professional musiqisinin beşiyi Azərbaycandır" hipotezinə çətin ki, dünyada etiraz edən tapıla. Dahi Üzeyir Hacıbəyovla başlayan və özünün heyrətamiz melodiyaları ilə bəşəriyyətin musiqi mədəniyyətinə əvəzolunmaz çalarlar bəxş edən Azərbaycan bəstəkarlıq məktəbinin ən görkəmli nümayəndələrindən biri də Fərhəng Rəhim oğlu Hüseynovdur. Bəstəkar, skripkaçı, Azərbaycanın əməkdar artisti (2009), "Böyük İpək Yolu" Beynəlxalq müsabiqənin (Yaponiya, 1991), "Sülh naminə" Beynəlxalq müsabiqənin (ABŞ, 1995) "Xose Asunsyon Flores" adına I Beynəlxalq müsabiqənin laureatı (Argentina, 2000), gözəl insan, millətinin başını uca edən fədakar sənətkar Fərhəng Hüseynov 1949-cu ilin iyulunda dünyaya göz açıb.

O, anadan olanda atası aspiranturanı yenicə bitirmişdi və gənc alim arzularının qoynunda xoşbəxtlik iksirinin təsiri ilə körpəsinin gələcəyi barədə xoş fikirlərə qərq olurdu. Alim atanın duyğularına qanad verən amillərdən biri Fərhəngdə uşaqlıqdan özünü büruzə verən Qarabağ ellərinə məxsus əsarəngiz musiqili yaşam intonasiyası idi. Onun gümanları hədər deyilmiş.

Ayaq açıb yeriyəndən, dil açıb danışandan ömür yolu səslərin poetikasında harmoniyalaşan Fərhəng 1968-ci ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin skripka sinfini bitirir və Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsinə daxil olur. Tale onun üzünə gülür, Azərbaycan bəstəkarlıq məktəbinin dahisi Qarayev və görkəmli sənətkar oğul Qarayev onun müəllimləri olur. Qara Qarayev Fərhəngin sənət müəllimi, Fərəc Qarayev isə ixtisas müəllimi kimi gənc istedadın yetişməsində, püxtələşməsində əllərindən gələni əsirgəmirlər. 3-cü kursda oxuyanda məhz Qara Qarayevin məsləhəti və xeyir-duası ilə Fərhəng P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına köçürülür və təhsilini bu dünya şöhrətli musiqi ocağında davam etdirir.

Qara Qarayev tələbəsinin yeni müəllimi Leonid Koqana göndərdiyi məktubda Fərhəngin parlaq gələcəyə malik istedadlı, təvazökar və zəhmətkeş gənc olduğunu inamla bildirir və xahiş edir ki, onunla ciddi və tələbkar olsun. Koqan dünya musiqi aləminin dahilərindən olan dostunun xahişinə diqqətlə yanaşır və Fərhəngin kamil bir sənətkar kimi yetişməsi üçün əlindən gələni edir. F.Hüseynov ona göstərilən etimadı doğruldur və gördüyü qayğı və hörmətin qarşılığında dünya musiqi xəzinəsinin başında dayanan Avropa musiqisinin incəliklərini dərindən mənimsəyir. Artıq tələbəlik illərindən layiq olduğu şöhrət onun qapısını döyür. Xarici ölkələrə qastrol səfərlərinə göndərilir, müsabiqələrdə iştirak edir. 4-cü kursda olanda Qərbi Berlində keçirilən Gerberin fon Karayan adına müsabiqədə Moskva konservatoriyası orkestrinin heyətində etdiyi çıxışa görə qızıl medala layiq görülür.



1975-ci ildə Fərhəng konservatoriyanı skripka və bəstəkarlıq olmaqla iki ixtisas üzrə uğurla başa vurur. Əsgəri xidmətini hərbi hissənin orkestrində keçir. Hərbi borcunu ödəyib, artıq Bakıya yüksək ixtisaslı musiqi müəllimi kimi qayıdır, konservatoriyada dərs deyir. Lakin yaradıcılıq yolunu davam etdirir. Skripkada ifa etməklə yanaşı onu narahat edən hadisələrin musiqi poetikasını axtarır, qəlbini çulğalayan hisslərin harmonik ardıcıllığını, onların bədii tonallığını səslərin intonasiyasında tapmağa çalışır. Özü də hiss etmədən bu duyğuların qoynunda atasının tədqiq etdiyi səma ilə kosmik əlaqə məkanın daxil olur. İlahi bir qavrama hissi omu melodiyaların ağuşuna atır. Düşdüyü aləmin sehrini dərindən mənimsəmək üçün yenidən Moskvaya gedib assistent-stajor qismində aspirantura təhsili almağa ehtiyac duyur. Bundan sonra isə yaradıcılıq istiqamətini rels üzərinə keçirərək sürətlə sənətin zirvələrinə doğru yol alır. UNESCO-nun təşəbbüsü ilə 1991-ci ildə Yaponiyanın "Asaxi" televiziya şirkətinin hamiliyi altında Tokioda keçirilən dünya bəstəkarlarının "Böyük İpək Yolu" festivalı öz möhtəşəmliyi ilə dünyanın ünlü bəstəkarlarının diqqətini cəlb edir. Yaradıcılıq əzabının bütün parametrlərinə hazır olan Fərhəng bu simfonik əsərlər yarışında özünü sınamaq qərarına gəlir. Festivala göndərilən 178 əsər içərisində Fərhəng Hüseynovun "Böyük Çöl", "Hərb və Sülh", "Böyük Elçilik", "Oyunlar", "Ay Yolu" əsərlərindən ibarət "Zaman üzrə səyahət" adlı beşhissəli konserti də yer alır. Həmin əsərlərin sırasından beynəlxalq səviyyəli münsiflər heyəti tərəfindən cəmi 10 əsər seçilib finala tövsiyə edilir və... onlardan beş əsər qalib elan olunur. Azərbaycanlı bəstəkarın adı qaliblər sırasında 3-cü yerdə çəkilir və musiqi korifeyləri bəstəkarın konsertini "festivalın əsas orijinal musiqi kompozisiyasında parlaq surətdə təcəssüm etdirilmiş" kimi qiymətləndirirlər. Çoxprofilli beynəlmiləl milli koloriti - Azərbaycan, Avropa, Çin, yapon musiqisinin melodik, ritmik, tembr cizgilərini bir məcraya gətirməyi bacaran istedadlı bəstəkar vahid bir musiqi mənzərəsi yaratmaqla dinləyicilərə ümumbəşəri hisslər aşılamağa uğurla nail olur. Ömrünün müdrik çağına qədər uğur dalınca qaçmayıb yalnız öyrənməklə məşğul olan, təvazökarlığı və zıhmətsevərliyi özünə peşə edən Fərhəng Hüseynovun kosmik aləmdə kodlaşma dövrü Yaponiyadakı qələbəsilə başlayır. Həmin andan etibarən uğur özü onun yanına uçur və yeni qələbələrə doğru aparır. Beynəlxalq festivalın qalibi gündoğar ölkəyə dəvət edilir. Tokioda qaldığı 10 gün ərzində tənrənəli təltifetmə mərasimində iştirak edir. Jurnalistlərin çoxsaylı reportajlarının, məqalə və müsahibələrinin əsas personajına çevrilən azərbaycanlı musiqiçinin adı və şəkli qəzet-jurnal səhifələrinin bəzəyinə çevrilir.

**(ardı növbəti sayımızda)**

***Novruz NOVRUZOV,***
***jurnalist***